# Yeni reallıqların tələbi

## Azərbaycanın iştirak etmədiyi tədbirlərdə belə ərazi bütövlüyümüzə hörmətlə yanaşılması İlham Əliyevin yaratdığı reallığın göstəricisidir

**Oktyabrın 5-də İspaniyanın Qranada şəhərində Avropa Siyasi Birliyinin növbəti sammiti çərçivəsində Avropa İttifaqı Şurasının vasitəçiliyi ilə Azərbaycanın iştirakı olmadan keçirilən qeyri-rəsmi müzakirələrdə ölkəmizin ərazi bütövlüyünün qorunmasının vacibliyi qeyd edilib.**



Bu, Prezident İlham Əliyevin liderliyi ilə 44 günlük Vətən müharibəsində və antiterror tədbirləri nəticəsində yaranmış yeni reallıqların ifadəsidir.

Məsələ ilə bağlı "Azərbaycan" qəzetinə açıqlama verən Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib ki, Qranadada Azərbaycanın iştirakı olmadan keçirilən müzakirələr və yekunda ərazi bütövlüyümüzü ehtiva edən bəyanatın qəbul edilməsi görüş iştirakçılarının beynəlxalq hüquqa hörmətinin ifadəsi yox, Azərbaycan Prezidentinin yaratdığı reallığın göstəricisidir.

"Konstitusiyanın 10-cu maddəsinə əsasən, Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüququn normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur. Lakin Azərbaycana münasibətdə beynəlxalq hüququn prinsiplərinə zidd və açıq formada qərəzli davranışlar sergiləndiyinin də şahidi olmuşuq. Dövlətlərin ərazi bütövlüyü, sərhəd toxunulmazlığı, daxili işlərinə qarışmağın yolverilməzliyi prinsiplərinin faktiki olaraq işğal faktoru fonunda arxa plana keçirildiyini müşahidə edirik. Bizə münasibətdə BMT TŞ-nin qətnamələri başda olmaqla, çoxsaylı beynəlxalq sənədlərlə kağız parçası kimi davranılıb və icrasız qalıb", - deyə deputat qeyd edib.

Bəhruz Məhərrəmov vurğulayıb ki, ölkəmizdə beynəlxalq hüququn aliliyi Prezident İlham Əliyevin qətiyyəti ilə təmin edilib. Planlı, ardıcıl və beynəlxalq hüquqa uyğun addımlarla, o cümlədən müəyyən məqamlarda BMT Nizamnaməsinin 51-ci maddəsində təsbit olunan özünümüdafiə hüququ çərçivəsində Azərbaycan güc tətbiqi ilə ərazi bütövlüyünü təmin edib. Ermənistan da fakt qarşısında qalaraq Azərbaycanın ərazi bütövlüyünü konkret rəqəmlə ifadə etməli olub.



Deputat bildirib ki, Azərbaycanla Ermənistan arasında prinsipial narazılığın kökündə dayanan separatizm məsələsinin, habelə Ermənistan ordusunun hissələrinin Azərbaycan ərazisindən çıxarılmasının cəmi 23 saat ərzində antiterror tədbirləri ilə təmin olunması tamamilə yeni reallıq yaradıb: "Dövlət başçısı beynəlxalq müstəvidə elə bir geosiyasi konfiqurasiyanın formalaşmasına nail olub ki, artıq bu reallıqları qəbul etməmək beynəlxalq hüququ rədd etmək anlamına gəlir. Bir zamanlar "Qarabağ Ermənistandır" deyən Paşinyanın artıq Azərbaycanın iştirak etmədiyi tədbirlərdə belə ölkəmizin ərazi bütövlüyünə hörmətlə yanaşması, beynəlxalq hüququn ərazi bütövlüyü prinsipinə "sədaqət" nümayiş etdirməsi birbaşa Prezident İlham Əliyevin yaratdığı konfiqurasiyanın tələbidir".

B.Məhərrəmov son günlər Fransa, Almaniya və Avropa İttifaqının beynəlxalq hüququn prinsiplərinə zidd və açıq formada qərəzli davranışlar sərgiləmələrinə, riyakar addımlar atmalarına da diqqət çəkib. Lakin Azərbaycanın artan güc və imkanları, o cümlədən Prezident İlham Əliyevin qlobal miqyaslı lider kimi şəxsi nüfuzu bütün bu kimi riyakar cəhdlərin əməli tədbirə çevrilmədən sadəcə ritorika kimi qalmasını təmin edir.

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 8 oktyabr.- S.6.